**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**



Görkəmli alim və ictimai xadim, AMEA-nın müxbir üzvü Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, BDU-nun sabiq rektoru, fizika-riyaziyyat elmlər doktoru, professor

# YƏHYA MƏMMƏDOVUN

anadan olmasının 85 illik yubileyinə həsr olunmuş Beynəlxalq elmi konfransın

**M A T E R I A L L A R I**

**Bakı – 2015**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

Azərbaycanın görkəmli alimi və ictimai xadimi, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, BDU-nun sabiq rektoru, AMEA-nın müxbir üzvü, professor

# YƏHYA CƏFƏR oğlu MƏMMƏDOVUN

anadan olmasının 85 illik yubileyinə həsr olunmuş Beynəlxalq elmi konfransın

**M A T E R I A L L A R I**

**Bakı – 2015**

## KONFRANSIN
## TƏŞKİLAT KOMİTƏSİ

| | | | |
|---|---|---|---|
| 1. | akad.A.M.Məhərrəmov | rektor | sədr |
| 2. | AMEA-nın müxbir üzvü, prof. A.H.Kazımzadə | elm və innovasiyalar üzrə prorektor | sədr müavini |
| 3. | prof. N.Ş.İsgəndərov | dekan | sədr müavini |
| 4. | prof. Luben Vulkov | Rousse universitetinin professoru, Bolqarıstan | üzv |
| 5. | prof. Mahir Rəsulov | Bilkent universitetinin professoru, Türkiyə | üzv |
| 6. | prof. Qabil Amirali | Erzincan universitetinin professoru, Türkiyə | üzv |
| 7. | prof. Yalçın Əfəndiyev | Texas universitetinin professoru, ABŞ | üzv |
| 8. | prof. Mahmud Abdel-Aty | Sohaq universitetinin professoru, Misir | üzv |
| 9. | akad.T.A.Əliyev | AMEA-nın İdarəetmə Sistemləri İnstitunun direktoru | üzv |
| 10. | prof. Q.Y.Mehdiyeva | kafedra müdiri | üzv |
| 11. | prof. M.C.Mərdanov | AMEA-nın Riyaziyyat və Mexanika institunun direktoru | üzv |
| 12. | prof. V.R.İbrahimov | professor | üzv |
| 13. | prof. Ə.M.Əhmədov | kafedra müdiri | üzv |
| 14. | prof.M.H.Yaqubov | kafedra müdiri | üzv |
| 15. | dos.V.Ə.Qasımov | kafedra müdiri | üzv |
| 16. | dos.S.C.Əliyev | kafedra müdiri | üzv |
| 17. | dos.F.A.Abdullayev | kafedra müdiri əvəzi | üzv |
| 18. | dos.A.Y.Əliyev | dosent | məsul katib |

## ÖN SÖZ

## GÖRKƏMLİ ALİM, İCTİMAİ XADİM, ELM VƏ TƏHSİL TƏŞKİLATÇİSİ

Dünya şöhrətli alim,tanınmış  ictimai xadim, görkəmli elm və təhsil təşkilatçısı, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı,BDU-nun sabiq rektoru, AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor  Yəhya Cəfər oğlu Məmmədovun 85 yaşı tamam olmuşdur.

Professor Yəhya Cəfər oğlu Məmmədov 1930-cu il oktyabr ayının 10-da Azərbaycan Respublikasının Naxçıvan şəhərində anadan olmuşdur. 1954-cü ildə Azərbaycan Dövlət Universitetini (indiki BDU) fərqlənmə diplomu ilə bitirərək aspiranturada saxlanılmış, 1957-ci ildə vaxtından əvvəl namizədlik dissertasiyasını müdafiə etmiş, . universitetdə müəllim,sonralar isə  baş müəllim, dosent kimi fəaliyyə göstərmişdir. Professor Yəhya Məmmədov 1965-ci ildə müvəffəqiyyətlə doktorluq dissertasiyası müdafiə edərək həmin ildə Hesablama riyaziyyatı kafedrasına müdir seçilmiş, ömrünün sonunadək -35 il bu vəzifəni uğurla icra etmişdir.O, 1971-ci ildən 1987-ci ilədək BDU-nun  elmi işlər üzrə prorektoru, 1987-1989-cu illərdə isə rektoru vəzifələrində çalışmışdır.  Prof. Yəhya Məmmədov prorektor kimi 17 illik gərgin fəaliyyəti ərzində universitetdə elmin inkişafına, onun beynəlxalq nüfuzunun yüksəlməsinə, bir çox elmi tədqiqat laboratoriyalarının yaradılmasına, elmi  tədqiqatların inkişafına, onların səmərəliliyinin artırılmasına, elmin istehsalat və tədris prosesi ilə əlaqələrinin yaxşılaşdırılmasına xüsusi diqqət  və qayğı göstərmişdir. Onun rektorluq dövrü respublikamız üçün mürəkkəb və təlatümlü illərə düşsə də,nüfuzuna və ləyaqətinə zərrə qədər də xələl gətirməmiş, əksinə Azərbaycan təhsilinin və elminin bayraqdarı olan Universitetdə tənəzülün qarşısını almaga çalışmış, milli düşüncənin beşiyinə çevrilən bu təhsil ocağının başında böyük vətənpərvər bir ziyalının dayandığını ləyaqətlə nümayiş etdirmişdir.

Prof. Yəhya Məmmədov qeyri-xətti analiz və hesablama riyaziyyatı sahəsində dünyada tanınmış görkəmli alimlərdən biridir. O, dünyanın müxtəlif ölkələrində çap olunmuş 100-dən çox elmi məqalənin, 7 monoqrafiyanın bundan əlavə 5 dərslik və dərs vəsaitinin müəllifidir.

Prof. Y.C. Məmmədov riyaziyyat aləmində sağ tərəfi birtərəfli qiymətləndirməyə tabe olan, qeyri-xətti operator-diferensial tənliklərin həllinin tədqiqi üsulunun, eləcə də abstrakt qeyri-xətti Volter operator tənliklər nəzəriyyəsinin yaradıcılarından biridir. O, 1974-cü ildə nəşr etdirdiyi "Adi diferensial tənliklərin təqribi həllərinin tapılması üsulları" adlı monoqrafiyasına görə Respublika Dövlət Mükafatına layiq görülmüşdür. Prof. Y.C. Məmmədov müəyyən sinif tənliklərin, həlli sürətlə yığılan iterasiyalar şəklində axtarılan ekvivalent tənliklərə gətirilməsi üçün yeni üsul təklif etmişdir. Bu üsul riyazi elmi ədəbiyyatda "Məmmədov üsulu" adlandırılır.

Onun rəhbərliyi altında Azərbaycandan başqa dünyanın 9 ölkəsindən (Almaniya, Əlcəzair, İraq, Misir, Polşa, Rusiya, Türkiyə, Türkmənistan və Özbəkistan) 32 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir. Hazırda onlardan 8-i elmlər doktoru və professordurlar. Prof. Y.C.Məmmədov keçmiş sovetlər birliyinin bir çox şəhərlərində 60-dan çox namizədlik və doktorluq dissertasiyalarına oponentlik etmişdir. O, dünyanın bir çox ölkələrində keçirilən Beynəlxalq konqres və konfranslarda Azərbaycan riyaziyyat məktəbini ləyaqətlə təmsil etmiş, SSRİ-nin Ali Təhsil Nazirliyinin nəzdindəki Elmi Metodik Şuranın Riyaziyyat Bölməsi Rəyasət heyətinin üzvü olmuşdur. Prof. Y.C.Məmmədov bir çox nüfuzlu beynəlxalq mükafatlara, o cümlədən "Akademik Vavilov" medalına, "Drujba narodov" ordeninə layiq görülmüş, ABŞ-ın Minneapolis şəhərinin "Fəxri vətəndaşı" seçmişdir. Böyük xidmətlərinə görə 1980-ci ildə ona "Əməkdar elm xadimi" fəxri adı verilmiş, 1983-cü ildə isə Azərbaycan Respublikasının Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Azərbaycan riyaziyyat elminin inkişafında böyük xidmətləri olmuş Prof. Yəhya Məmmədov 2000-ci il yanvarın 26-da ömrünün çiçəklənən dövründə dünyasını dəyişməsinə baxmayaraq, görkəmli alim, yüksək mənəvi keyfiyyətlərə malik insan, elm və təhsil təşkilatçısı kimi tanıyanların qəlbində bu gün də yaşayır. 85 illik yubileyi münasibətilə elmi konfransın keçirilməsi onun parlaq xatirəsinə alimlərin, ziyalıların ehtiramının daha bir göstəricidir.

**Bakı Dövlət Universitetinin rektoru,**
**akademik Abel Məhərrəmov**